# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 289** **QƏRAR** **Bakı şəhəri, 2 avqust 2016-cı il**

# "Azərbaycan Respublikasında elmi ekspedisiyaların təşkili və aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 4 may tarixli 255 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramının icrasına dair Tədbirlər Planı"nın 16-cı hissəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikasında elmi ekspedisiyaların təşkili və aparılması Qaydaları" təsdiq edilsin (əlavə olunur).

2. Müəyyən edilsin ki, Azərbaycan Respublikasında elmi ekspedisiyalar və çöl işlərinin aparılması xərcləri dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərində Azərbaycan Milli Elmlər Akademiyası və digər qurumlar üçün nəzərdə tutulan müvafiq vəsaitlər hesabına təmin edilir.

3. "Arxeoloji ekspedisiyaların həyata keçirilməsi üzrə xərc normaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 22 avqust tarixli 196 nömrəli qərarı ləğv edilsin.

***Artur RASİ-ZADƏ,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərara edilmiş əlavənin tam mətni ilə www.azerbaijan-news.az və cabmin.gov.az saytlarında tanış ola bilərsiniz.*